# Tələbələrin təlim nailiyyətlərinin qiymətləndirilməsində reytinq sistemi

**Könül Sahib qızı Hüseynova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
**E-mail:** konul-adpu@mail.ru

**Rəyçilər:** p.ü.f.d., prof. L.N. Qasımova,
p.ü.f.d., dos. T.S. Paşayev

**Açar sözlər:** təhsil, qiymətləndirmə, tələbə, reytinq sistemi, fəaliyyət stimullaşdırılma
**Ключевые слова:** образование, оценивание, студент, рейтинговая система, деятельность, стимулирование
**Key words:** education, assessment, student, rating system, activity, stimulation

Hazırda təhsilin müasirləşdirilməsi, Avropa təhsil sisteminə inteqrasiyası ali məktəbdə təlim prosesinin və mütəxəssis hazırlığının keyfiyyətini yüksəltmək sahəsində ciddi vəzifələr irəli sürür. Bu vəzifələrin reallaşdırılması təhsilin məzmun, metod, forma və texnologiyalarında olduğu kimi, qiymətləndirmə vasitələrinin də təkmilləşdirilməsini, yeni vasitə və metodların tətbiqini tələb edir. Belə vasitələr sırasında qiymətləndirmənin reytinq sistemi mühüm yer tutur. O müəyyən dövr ərzində təhsilalanın təlimlə bağlı bütün fərdi fəaliyyət sahələrini təhlil edib qiymətləndirməyə imkan verir, eləcə də biliklərin və praktik bacarıq və səriştələrin formalaşması üçün başlıca motivasiya rolunu oynayır. Təcrübə göstərir ki, digər qiymətləndirmə vasitə və metodlarından fərqli olaraq reytinq metodu birdəfəlik yoxlama və qiymətləndirmə ilə başa çatmır, müəyyən təhsil dövrü ərzində sistemli xarakter daşıyır və müntəzəm tətbiq olunur, təhsilalanların təlim prosesindəki fəaliyyətinin nəticələrinə görə onların kollektivdəki mövqeyini, statusunu müəyyənləşdirməyə imkan verir.

Reytinq qiymətləndirməsinin zəruriliyi həm də gənclərin rəqabət qabiliyyətini artırmaqla, onları gələcəkdə rəqabət mühitində fəaliyyət göstərməyə hazırlamaqla bağlıdır. Bu məsələ “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda təhsilin mühüm vəzifəsi kimi qarşıya qoyulmuşdur. Orada göstərildiyi kimi, ölkənin modernləşdirilməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq təhsil sisteminin başlıca vəzifələrindəndir (1). Bununla bağlı sənəddə təhsil proqramları, tədris resursları, təlim metodikaları, təhsil iştirakçıları və təhsil müəssisələri arasında sağlam rəqabətin stimullaşdırılması, rəqabət elementlərinin müəyyənləşdirilməsi və tətbiq edilməsi mühüm strateji hədəf kimi nəzərdə tutulmuş, respublika ali təhsil müəssisələrinin reytinq səviyyəsinin yüksəldilməsi zəruriliyi qeyd edilmişdir.

Xarici ölkələrin, o cümlədən Amerika məktəblərinin təcrübəsində təhsilalanları daha fəal əməyə təhrik etmək üçün rəqabət amilindən təlim-tərbiyə işində stimul kimi istifadə olunur. Stimullaşdırma, xüsusən yarış metodları gəncləri gələcək həyati vəziyyətləri qabaqcadan görməyə, uğursuzluq hallarını ləyaqətlə, sakitliklə qarşılamağa, müvəffəqiyyətlərə sevinməyə hazırlayır. Stimullaşdırmanın digər bir vasitəsi tələbənin (şagirdin) kollektivdə öz mövqeyini, reytinqini yüksəltmək səyinin formalaşdırılmasından ibarətdir. Bunun üçün açıq reytinq - “açıq perspektivlər sistemi” ən yaxşı vasitədir. Bu stimullaşdırma priyomundan istifadə edən

pedaqoqlar tələbə və şagirdlərin təlimdə yüksək templə irəliləməsinə nail olurlar. Professorlar Ə. Paşayev və F. Rüstəmovun qeyd etdikləri kimi, burada xüsusi sirr yoxdur; insanların çoxu özləri haqqında xoş sözlər eşitməyi sevirlər. Müəyyən müddət xoş söz insanda inam və özündən məmnunluq hissi yaradır. Buna görə də gənclərə öz nailiyyətlərini göstərmək vacibdir. Heç şübhə yoxdur ki, şagirdə (tələbəyə) özünün fərdi idraki inkişafı haqqında obyektiv informasiya təqdim olunarsa, onun səylə oxuması və çalışması üçün əlverişli stimul yaranar (2).

Reytinq metodunun mühüm bir xüsusiyyəti tələbələrdə öz güclərinə inamın artmasına kömək göstərməsidir. Psixoloqlara görə, öz qabiliyyətlərini inkişaf etdirmək meyli bütün insanlar üçün təbiidir. Bu meyl kiçik yaşlardan aşılanmalı, təhsilin yuxarı pillələrində daha da inkişaf etdirilməlidir. Təlimdə müxtəlif vasitə və metodların, o cümlədən, reytinq metodunun köməyi ilə təhsilalanlarda özünə inam hissini möhkəmləndirmək mümkündür. Göstərilən imkanlarına görə reytinq metodundan yeni qiymətləndirmə vasitəsi kimi təhsil sistemində geniş istifadə olunur.

"Reytinq" ingiliscə "rating" sözündən götürülüb, qiymətləndirmək, ranqlaşdırmaq mənasını verir. Reytinq təlimdə bir sistem kimi çıxış edir; çünki fənnin mənimsənilməsi prosesində tələbənin (şagirdin) təlim fəaliyyətinin bütün növləri üzrə fərdi yoxlanması və qiymətləndirilməsi həyata keçirilir. Reytinq sistemi dedikdə, təlim subyektinin (təhsilalanın) digər subyektlərlə müqayisədə bütün fəaliyyət sahələri üzrə müvəffəqiyyət göstəricilərinin müvafiq ballarla ifadə olunan fərdi kompleks qiymətləndirilməsi başa düşülür. Reytinq sistemi bütün semestr və ya təlim dövrü ərzində bilik və bacarıqların iş növləri və mərhələlər üzrə müntəzəm yoxlanması və qiymətləndirilməsini və alınan balların (qiymətlərin) toplanması nəticəsində təhsilalanın qrupdakı mövqeyini (yerini) müəyyənləşdirməyi nəzərdə tutur. Başqa sözlə, reytinq sistemi təhsilalanların fərdi təlim göstəriciləri olmaqla ayrı-ayrı iş növlərinin qiymətləndirilməsi nəticəsində toplanan balların cəmini və bu əsasda tələbənin (şagirdin) qrupda tutduğu mövqeyi (yeri) ifadə edir. Bu sistem təhsilalanların təlim prosesinə, mənimsəmə səviyyəsinə səmərəli nəzarət və qiymətləndirməni təmin etməyə imkan verir.

Qiymətləndirmənin reytinq sistemi qarşısında bir sıra vəzifələr durur. Pedaqoji mənbələrdə bu vəzifələr müxtəlif şəkildə şərh olunur. Bəzi mənbələrdə üç vəzifə göstərilir: tələbələrin tədris, elmi fəaliyyətində motivasiya səviyyəsini yüksəltmək; təhsil proqramının səmərəli, kompleks monitorinq sistemini formalaşdırmaq; fərdi təhsil proqramlarını yaratmaq (3, s. 329). Digər mənbələrdə isə (4; 5) əlavə olaraq başqa vəzifələr də irəli sürülür: tələbələri özünənəzarətə və öz təlim fəaliyyətlərini planlaşdırmağa cəlb etmək; onlarda intizam və təlim əməklərinin nəticələrinə görə məsuliyyət hissi formalaşdırmaq; təlim nəticələrinin qiymətləndirilməsinin obyektivliyini təmin etmək və s.

Reytinq sistemi özünəməxsus məqsəd və vəzifələri yerinı yetirir. Bu sistemin başlıca məqsədi tələbələrin (şagirdlərin) tədris materialı üzərində müntəzəm və sistemli işini təmin etmək yolu ilə onların fəallığını, məsuliyyətini artırmaqdan, təlim prosesinin subyektləri kimi çıxış etmələri üçün əlverişli şərait yaratmaqdan ibarətdir. Hər bir təhsilalan özünü təlim prosesinin subyekti kimi dərk etməli, öz fəaliyyətini məqsədyönlü şəkildə planlaşdırıb təşkil etməyi bacarmalıdır. Bu baxımdan reytinq texnologiyasında öyrədən və öyrənənlər arasında subyekt-obyekt yox, subyekt-subyekt və əməkdaşlıq münasibətləri formalaşır.

Göründüyü kimi, reytinq sistemi tələbələrin təlim nəticələrinin qiymətləndirilməsi ilə məhdudlaşmır, o, habelə təlim keyfiyyətinin yüksəldilməsi üçün kompleks funksiyaların həyata keçirilməsini təmin edir. Aparılan müşahidə və təcrübələr reytinq sisteminin xüsusiyyətlərini müəyyənləşdirməyə əsas verir. Digər qiymətləndirmə vasitələrindən reytinq sistemi bir neçə xüsusiyyəti ilə fərqlənir. Onlardan aşağıdakıları qeyd etmək olar.

Adi nəzarət və qiymətləndirmədən fərqli olaraq reytinq sistemində bütün iş növləri – davamiyyətdən tutmuş imtahanadək hamısı müvafiq ballarla qiymətləndirilir; imtahan qiymətləri yeganə və əsas müvəffəqiyyət göstəricisi kimi çıxış etmir. Başqa sözlə, tələbənin (şagirdin) ümumi, yekun reytinqi təkcə imtahanlara görə yox, semestr (tədris ili) ərzindəki bütün fəaliyyəti əsasında müəyyənləşdirilir. Buna görə də hər bir tələbə (şagird) təkcə İmtahan ərəfəsində yox, fənnin tədrisinin davam etdiyi bütün dövr ərzində fəal çalışmalı olur.

Digər bir xüsusiyyət ondan ibarətdir ki, reytinq sisteminin köməyi ilə təkcə yaxşı oxuyan tələbələr deyil, habelə orta və zəif oxuyan tələbələrin də semestr ərzində fəallıq göstərməsi üçün stimul yaranır. Hər bir iş növü kəmiyyətcə – müvafiq ballarla qiymətləndirildiyi üçün qrupda, bir növ, rəqabət mühiti yaranır; hər kəs yoldaşlarından geri qalmamağa çalışır – hər bal üçün mübarizə aparır.

Reytinq sisteminin mühüm bir xüsusiyyəti qiymətləndirmənin sistemli və şəffaf həyata keçirilməsi, müntəzəm əks əlaqənin təmin olunması sayəsində tələbə (şagird) öz reytinqini izləmək, təlim göstəricilərini əvvəlki göstəricilərlə və yoldaşlarının təlim uğurları ilə müntəzəm müqayisə etmək imkanı qazanır, çətinlik çəkdiyi məsələlər üzərində işləyir, öz qüvvəsinə inamı artır. Semestr (il) boyu çalışdıqca yoxlama və imtahanlardan həyəcan və qorxu hissləri keçirmir. Bu isə qrupda psixoloji mühiti yaxşılaşdırmağa və fəallığı yüksəltməyə əlverişli şərait yaradır.

Reytinq sistemi ali məktəbdə tələbələrin təlim müvəffəqiyyətinin obyektiv qiymətləndirilməsi və təhsilin keyfiyyətinin yüksəlməsinin mühüm amili kimi böyük əhəmiyyət kəsb edir. Eyni zamanda:

bu sistem təsadüfi qiymətləndirməyə imkan vermir; sistemli yoxlama və qiymətləndirmə nəticəsində təlim müvəffəqiyyətinin daha obyektiv və dəqiq qiymətləndirilməsi təmin edilir;

tələbənin təlimə səyi, hazırlıq və mənimsəmə səviyyəsi haqqında obyektiv informasiya əldə etməyə imkan verir;

bütün semestr (tədris ili) ərzində tələbələrin müstəqil və rəvan şəkildə (böyük fasilələrə yol vermədən) çalışmasının fəallığını stimullaşdırır;

bu sistemdə təhisalanlar tədris prosesinə daha məsuliyyətlə yanaşır, onlarda intizam, özünənəzarət, özünüqiymətləndirmə və digər şəxsi keyfiyyətlərin formalaşması üçün əlverişli şərait yaranır.

Qiymətləndirmənin reytinq sisteminin tətbiqində göstərilən xüsusiyyətləri nəzərə almaq, onlardan düzgün istifadə etmək lazımdır. Bu zaman reytinq sisteminin prinsiplərinə də istinad etmək vacibdir. Prinsip (latınca “prinsipium” – ilkin, əsas deməkdir) müəyyən prosesin qanunauyğunluqlarına əsaslanmaqla onun səmərəli qurulmasına imkan verən ilkin ideyalar, fəaliyyət normaları, başlıca tələblərdir (6, s. 223). Reytinq qiymətləndirməsi elmi prinsiplərə əsaslandıqda müsbət nəticə verir və əksinə. Mövcud ədəbiyyatda (3, 4) reytinq sistemində qiymətləndirmənin bir neçə prinsipi irəli sürülmüşdür: ranqlaşdırma, obyektivlik, bələdləşmə, motivasiya, kompleks yanaşma prinsipləri.

Ranqlaşdırma – reytinq sisteminin başlıca prinsipidir. Bu prinsip hər hansı obyekti, keyfiyyəti müəyyən əlamətə (əlamətlərə) əsasən təhlil edib əhəmiyyətlilik, vaciblik dərəcəsinə görə dəyərləndirmək, sıralamaq məqsədi güdür. Reytinq sistemində ranqlaşdırma yolu ilə ayrı-ayrı təhsil fəaliyyəti sahələrinin qiymətləndirilməsi nəticəsində əldə olunan balların toplanması əsasında tələbənin (şagirdin) təlim nailiyyətlərinin dəyərləndirilməsinin fərdi kəmiyyət göstəricisi müəyyənləşdirilir.

Obyektivlik prinsipi qiymətləndirmə nəticəsinin müəllimin şəxsiyyətindən, subyektiv mövqeyindən asılı olmamasında ifadə olunur. Reytinq sistemində bunun üçün birdəfəlik qiy-

mətləndirməyə nisbətən əlverişli şərait yaranır.

Motivasiya prinsipi müntəzəm aparılan yoxlama və qiymətləndirmə sayəsində təhsilalanlarda biliklərə yiyələnməyə, qarşıya qoyulmuş məqsədlərə çatmağa, təlimə və zehni əməyə tədricən təlabat formalaşması ilə bağlıdır.

Bələdləşmə prinsipi təhsilalanlar üçün təlim fəaliyyətinin məqsəd və vəzifələrini, onların icra vasitələrini dəqiq müəyyənləşdirməkdə və həyata keçirilməsi imkanlarında istifadə olunur.

Kompleks yanaşma prinsipi təlim, təhsil, tərbiyə və elmi işlərin vəhdətində özünü göstərir.

Qeyd edilən prinsiplər vəhdət halında reytinq sisteminin səmərəliliyini şərtləndirməklə yanaşı təlim prosesinin və təhsilalanların təlim nəticələrinin keyfiyyətini yüksəltməyə, biliklərin daha obyektiv və dəqiq qiymətləndirilməsini təmin etməyə imkan verir.

Reytinq sistemində qiymətləndirmə onun növlərindən, məzmun və xüsusiyyətlərindən asılı olaraq diferensiv xarakter daşıyır. Tədqiqat göstərir ki, reytinq növlərinin təsnifatı sahəsində müxtəlif yanaşmalar mövcuddur. Bəzi tədqiqatçılar (M.V. Kalujskaya, O.S. Ukolova və b.) reytinqi tətbiq olunduğu obyektlərə, sahələrə görə təsnif edir və aşağıdakı reytinq növlərini irəli sürürlər: akademik mənimsəmə reytinqi (təhsilalanların təlim nailiyyətlərinin səviyyəsini əks etdirir); liderlik reytinqi (təhsilalanların ictimai-sosial fəallığı səviyyəsini əks etdirir); dərəcə və sertifikatlar üzrə reytinq (müxtəlif sahələrdə-xarici dillər, elm, incəsənət, idman və s. sahələrdə gənclərin şəxsi nailiyyətlərini əks etdirir) (7).

İkinci yanaşma tələbələrin (şagirdlərin) müəyyən fənn üzrə mənimsəmə nəticələrinin qiymətləndirilməsi ilə bağlıdır. Bu mövqedən çıxış edən tədqiqatçılar (L.F.Şmenin, N.V.Kuzmina, N.F.Kim və b.) reytinq qiymətləndirməsini təlim prosesindəki yerinə görə təsnif edir və onun bir neçə növünü göstərirlər (4, s. 536): cari, aralıq, dövri və yekun reytinq. Bunlar fənnin mənimsənilməsi prosesində müəyyən ardıcıllıqda tələbələrin müxtəlif fəaliyyət sahələri üzrə qazandıqları nailiyyət göstəricilərini müvafiq ballarla əks etdirir.

Reytinq sisteminin təsnifatına üçüncü yanaşma reytinqdə əhatə olunan fənlərin sayı və davam müddəti ilə əlaqələndirilir. Tədqiqatçılar (Q.A. Russkix, İ.Z. Çapkova və b.) bu baxımdan reytinqin beş növünü ayırd edirlər: fənn üzrə reytinq – tələbənin gündəlik fəlaiyyətinə və imtahan nəticəsinə əsaslanır; semestr reytinqi – müəyyən semestrdə keçirilən bütün fənlər üzrə tələbələrin müvəffəqiyyətini əks etdirir; yekun reytinq – müəyyən dövr ərzində öyrənilən yaxın fənlər silsiləsi üzrə təhsilalanın müvəffəqiyyətini əks etdirir; inteqral reytinq – müəyyən dövr ərzində tələbənin bütövlükdə müvəffəqiyyətini əks etdirir (8, s. 36).

**Məqalənin aktuallığı.** Qiymətləndirmənin reytinq sistemi təhsili idarəetmənin bütün səviyyələrində yüksək səmərə və keyfiyyət əldə etməyin vacib şərti kimi çıxış edir.

**Məqalənin elmi yeniliyi.** Reytinq sistemi ali məktəbdə tələbələrin təlim müvəffəqiyyətinin obyektiv qiymətləndirilməsi və təhsilin keyfiyyətinin yüksəlməsinin mühüm amili kimi böyük əhəmiyyət kəsb edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Reytinq sistemində tələbələrin təlim nəticələrinin kəmiyyət və keyfiyyət cəhətdən daha obyektiv qiymətləndirilməsi məqsədi ilə eksperimental qruplarda ənənəvi yoxlama vasitələri ilə birlikdə yeni innovativ vasitə və metodlardan da istifadə edilmişdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası "Xalq qəzeti", 2013, 25 oktyabr.
2. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika (Yeni kurs). Dərs vəsaiti. Bakı: Nurlan, 2007, 464 s.
3. Təhsildə tarixilik və müasirlik. X respublika elmi-praktik konfransının materialları. Bakı: 2018, 342 s.
4. Хуторской А.В. Современная дидактика: Учебник. СП(б), 2001, 260 с.
5. Шехонин А.А., Тарлыков В.А. Балльно-рейтинговая система оценивания результатов обучения // Высшее образование в России, 2011, N6, с.22-28.
6. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika: Dərslik. Bakı: Çaşıoğlu, 2012, 548 s.
7. Калужская М.В., Уколова О.С. Рейтинговая система оценивания. М.: Чистые пруды, 2006, 32 с.
8. Русских Г.А. Технология обучения // Дополнительное образование, 2004, № 12, с. 35-42.

**К.С. Гусейнова**

## Рейтинговая система оценивания учебных достижений студентов

## Резюме

Роль субъективного фактора при оценивании с помощью рейтинговой системы ограничена; учитель получает возможность дать объективную оценку; стимулирует активность студентов в усвоении содержания предмета. На основе регулярных рейтинговых баллов знакомятся с уровнем знаний и состоянием учебной деятельности, получают возможность внести необходимые корректировки и нормативную работу.

Посредством рейтинговой системы руководители образовательных учреждений регулярно получают достоверную информацию о состоянии образования на факультетах, специальностях и предметах, а также о качестве обучения студентов. Получают возможность диагностировать и эффективно управлять учебным процессом, принимать меры по прогнозированию, создать в образовании здоровую конкурентоспособную среду.

**K.S. Huseynova**

## Rating system for assessing students' academic achievements

## Summary

The role of the subjective factor in assessing using the rating system is limited; the teacher gets the opportunity to give an objective assessment; stimulates the activity of students in the assimilation of the content of the subject. On the basis of regular rating points, they get

acquainted with the level of knowledge and the state of educational activity, get the opportunity to make the necessary adjustments and normative work.

Through the rating system, heads of educational institutions regularly receive reliable information about the state of education at faculties, specialties and subjects, as well as the quality of student education. They get the opportunity to diagnose and effectively manage the educational process, take predictive measures, and create a healthy competitive environment in education.

**Redaksiyaya daxil olub:** 04.05.2021